# QARABAĞ ƏRAZİSİNDƏ FAUNA NÖVLƏRİNİN MONİTORİNQİ

**Əlǝddin Eyvazov, Elşad Əhmǝdov**

*Azǝrbaycan Respublikası Elm vǝ Tǝhsil Nazirliyinin Zoologiya İnstitutu, eyvazov.aladdin@mail.ru*

Qarabağ ǝrazisi heyvanlar alǝminin biomüxtǝlifliyinǝ görǝ Azǝrbaycanın ǝn zǝngin vǝ rǝngarǝng regionlarından biridir. Qarabağın çox nadir vǝ tǝkrarolunmaz iqlimi, bitki örtüyünün zǝnginliyi, landşaft vǝ biotop xüsusiyyǝtlǝrinǝ görǝ geniş müxtǝlifliyǝ malik olması onun fauna tǝrkibinin zǝnginliyinǝ öz tǝsirini göstǝrir. 30 ilǝ yaxın bir müddǝtdǝ işğal altında olan Qarabağ vǝ ǝtraf ǝrazilǝrdǝ monitorinqlǝr aparılmamışdır. İşğala qǝdǝrki tǝdqiqatları nǝzǝrǝ almasaq, bu regionun faunası haqında dǝqiq mǝlumat yoxdur.

Azǝrbaycanda aşkar edilmiş bütün fauna növlǝrinin 85%-ni buğumayaqlılar tǝşkil edir. Hazırda respublikada 28 dǝstǝyǝ aid 10 minǝ yaxın hǝşǝrat növü müǝyyǝn edilmişdir. Qarabağ ǝrazisindǝ aşkar edilǝn hǝşǝratlar faunasının 56 növü nadir, endemik vǝ nǝsli kǝsilmǝk tǝhlükǝsindǝ olan növlǝrdir. Ədǝbiyyat mǝlumatlarında Hǝkǝri çayında 12 növ, Bǝsitçay vǝ Oxçuçay çaylarında isǝ 13 növ balığın olduğu qeyd edilmişdir. Kiçik Qafqazın Azǝrbaycan hissǝsinin su hövzǝlǝrindǝ 53 növ vǝ yarımnöv balıq yayılmışdır ki, onlardan da 7 növ Azǝrbaycan Respublikasının "Qırmızı kitab"ına, 4 növ isǝ İUCN-nin Qırmızı siyahısına daxil edilmişdir.

Kiçik Qafqazın fauna müxtǝlifliyindǝ amfibilǝr vǝ reptililǝr xüsusi yer tutur. Hǝmin ǝrazilǝrdǝ Azǝrbaycanın batraxofaunasına aid 11 növ amfibidǝn 4-nǝ, herpetofaunasına aid 63 növ reptilidǝn isǝ 35-nǝ rast gǝlinir. Bu ǝrazilǝr amfibilǝr vǝ reptililǝr faunasının zǝnginliyinǝ görǝ Cǝnubi Qafqazda ǝn prioritet tǝbiǝt ǝrazilǝrindǝn biri hesab olunur. Azǝrbaycanın Kiçik Qafqaz vǝ ona bitişik dağǝtǝyi ǝrazilǝrindǝ rast gǝlinǝn amfibilǝrdǝn 1 növ İUCN-nin Qırmızı siyahısına, reptililǝrdǝn isǝ 6 növ İUCN-nin Qırmızı siyahısına vǝ Azǝrbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir. Bu ǝrazilǝrdǝ yayılmış 2 növ amfibi, 1 növ tısbağa vǝ 3 növ zǝhǝrli ilan iqtisadi cǝhǝtdǝn faydalı növlǝr hesab olunurlar. 1993-cü ilǝ qǝdǝr Azǝrbaycan ǝrazisindǝ 19 dǝstǝ, 65 fǝsilǝyǝ mǝnsub 405 quş növündǝn 16 dǝstǝ vǝ 57 fǝsilǝyǝ daxil olan 288 növ Qarabağ ǝrazisindǝ qeydǝ alınmışdır. Qarabağın tǝbii-coğrafi şǝraitinin rǝngarǝngliyi, bu bölgǝdǝ meşǝ vǝ kolluq quşları, açıq quru sahǝ quşları, bataqlıq vǝ sahil quşları, su quşları kimi ekoloji qruplara mǝnsub növlǝrin mǝskunlaşması, nǝsilvermǝsi vǝ qışlamasına şǝrait yaratmışdır. Qlobal vǝ milli mühafizǝ statuslarına malik növlǝrin ǝksǝri bölgǝnin dağlıq sahǝsindǝ qeydǝ alınmışdır. Bunlardan 50 növ Azǝrbaycan Respublikasının "Qırmızı kitab"ının II nǝşrinǝ (2013) daxil edilmişdir. Mǝmǝlilǝr ǝrazi vǝ landşaftlara görǝ qeyri-bǝrabǝr paylanmışdır. Dağlıq ǝrazilǝrdǝ tǝsadüf edilǝn 94 növdǝn 79-na Kiçik Qafqazda tǝsadüf edilir. Qarabağ ǝrazisindǝ işğala qǝdǝr 6 dǝstǝyǝ mǝnsub 75 mǝmǝli növü qeydǝ alınmışdır. Dǝstǝlǝr üzrǝ mǝmǝlilǝrin növ tǝrkibi belǝ olmuşdur: Qarabağ ǝrazisindǝ Hǝşǝratyeyǝnlǝr dǝstǝsinin (İnsectivora) 13 növündǝn 12 növ, Yarasalar dǝstǝsinin (Chiroptera) 34 növündǝn 20 növ, Dovşankimilǝr (Lagomorpha) dǝstǝsindǝn 1 növ, Gǝmiricilǝr (Rodentia) dǝstǝsinin 37 növündǝn 25 növ, Yırtıcılar (Carnivora) dǝstǝsinin 19 növündǝn 13 növ, Cütdırnaqlılar (Artiodactyla) dǝstǝsinin 8 növündǝn 4-ü mǝskunlaşmışdır. Qeyd edilǝn 6 dǝstǝyǝ mǝnsub 75 növ mǝmǝlidǝn 21 növü Azǝrbaycan Respublikasının "Qırmızı kitab"ının II nǝşrinǝ (2013) daxil edilmişdir.